# "SÖZ SEVGİLİMDİR"

## Dəmir Çeşməlinin yeni kitabı

**Yaxın günlərin söhbətidi. İş telefonuma zəng oldu. Dəstəyi qaldırdım və səsindən tanıdım. Çünki onun özünəməxsus həlim bir səsi var. Həm də bu səsdə bir doğmalıq, səmimiyyət çalarları aydınca hiss olunur. Ona görə yadımda qalıb bu səs.**

Təbii ki, ilk öncə salamlaşdıq. Və elə salamın ardınca da:

- Eşidirəm, Dəmir müəllim! - dedim.

Hiss etdim ki, ilk sözündən onu tanımağım ürəyincə oldu. Və həmin əhval-ruhiyyə ilə də hal-xoş edib bildirdi ki:

- Redaksiyaya gəlmişdim. Görüşmək istəyirdim. Yenicə çapdan çıxmış kitabımı da gətirmişdim, yerində tapa bilmədim səni. Kitabı ordakı əməkdaşlara verdim. Götürərsən...

Bəli, elə telefonun dəstəyini yenicə yerə qoymuşdum ki, kitab da gəlib çıxdı stolumun üstünə. Tam səmimiyyətlə deyim ki, tərtibatı dərhal diqqətimi çəkdi. Çox sadə və maraqlı bir görünüşü var idi kitabın. Adı da tamamlayırdı bu sadəliyi. Və mən elə kitabı gətirən xanımın yanındaca onu vərəqləməyə başladım. Adı ürəyimcə olan bu kitabda bir topa səmimiyyət, bir topa çiçək qoxusu toplanmışdı. Və mən bu səmimiyyətin içərisində qarşılaşdığım fikir yükünə də tuş gələndə necə deyərlər, kitabın sanbalını hiss etdim. Gördüm ki:

**Özül bildim tikdiyimi,**
**Göyə çəkdim çəkdiyimi.**
**Şaxta vurdu əkdiyimi,**
**Küləş bitdi dən olmadı.**

Və yaxud:

**Atılıb qalmışdım atılan yerdə,**
**Halalı harama qatılan yerdə.**
**Havasız, şəfasız satılan yerdə,**
**Gedəsi deyildim, yellər ayırdı.**

Mən kitabın ilk səhifələrindən başlayaraq qarşılaşdığım könlümə doğma olan bu







duyğu selinin içərisində bir həqiqəti də gördüm. O da təkcə mənim deyil, həm də kitaba ön söz yazmış çox hörmətli filologiya elmləri doktorları Vaqif Yusifli və İslam Sadıqın fikirlərinin üst-üstə düşməsi deməkdir. Deməli, hər iki müəllif vurğulayır ki, Dəmir Çeşməli şairdi!!! Və ardınca onu da oxucuya pıçıldayırlar ki, bu şairin mövzusu Vətəndi, təbiətdi, məhəbbətdi, insan duyğularıdı... Deməli, məhz bu səbəbə görə də mən bir oxucu kimi Dəmir Çeşməlinin şeirləriylə açıq ürəklə həmsöhbət ola bilirəm. Yəni bu şairin qəhrəmanlarının hamısı halallığı, paklığı gözümün önündə sərgiləyir. Açıq şəkildə deyir ki, mən elə yaranışdan beləyəm. Və onu da əlavə edim ki:

**Yaradan yaratdı, yaradan oldu,**
**Yaradan yarıtdı, yarıdan oldu.**
**Mənim sevgi payım Tanrıdan oldu,**
**Sən mənim ikili məhəbbətimsən.**

Və yaxud:

**Bulaq gözüm sudan axır**
**Yerə axır, göyə baxır.**
**Tanıdınmı əvvəl axır?**
**Mən Dəmirəm, Dəmir, dağlar.**

Bu gün oxucu qarşısına ürək dolu sevgiylə və həm də umulan, gözlənilən, təqdir olunan sevgiylə çıxan Dəmir Çeşməli özünün sayca 4-cü kitabında ənənəsinə, yaradıcılıq üsuluna sadiq qalaraq poeziyanı bilən, ürəyə daha çox yatan gəraylı, qoşma formalarına daha geniş yer ayırmaqla yanaşı, bayatılarını da özünəməxsus şəkildə bizlərə hədiyyə edibdi. Ümumiyyətlə bu şairin yaradıcılığında xalqdan, folklordan gələn ruh, bilgi, təqdim etmə məharəti çox orijinal olmaqla yanaşı, həm də müasirdi. Yeni oxucu Dəmir Çeşməlinin poeziya buketinə üz tutanda sanki xalq yaradıcılığının minilliklərdən süzülüb gələn səhifələriylə qarşılaşır, baş-başa qalır. Bax elə bu da müəllifin təkcə həmin o kökə bağlılığı yox, həm də o kökü yaxşı bilməsinin göstəricisidi. Mən çox hörmətli Dəmir Çeşməlinin "Söz sevgimdi" kitabı barəsində sizə çatdırdığım bu kiçik xülasədə onu da demək istəyirəm ki, söz, ədəbiyyat sevən oxucu "Söz sevgimdi" kitabı ilə tanışlıqdan peşman olmaz. Əksinə, bu kitabı əldə edib oxumasa, bəlkə də hardasa nə isə itirə bilər. Öz növbəmdə mən müəllifi təbrik edir və ona yeni yaradıcılıq uğurları arzulayıram.

**Əbülfət MƏDƏTOĞLU**